Səh. 2 Direktor – Azər Musaoğlu

Səh. 3 Görüb-götürən gənclik – Hacı Bəkiroğlu

Səh. 5 Coşqu, həyəcan, ümid, sevinc – Esmira Ələkbərli

Səh. 6 Cəmiyyəti bir-birinə fırlatdıran platforma – Aytən Fətullayeva

Səh. 2 Allahın ümidinə qalan Başkeçid – Cəlal Yadigarlı

Səh. 4 TDU BİRİNCİ KURS TƏLƏBƏLƏRİNƏ GÜRCÜ DİLİ KURSUNU HANSI ŞƏKİLDƏ TƏKLİF EDİB?

Səh. 7 Tarixin dostluq səhifələri – Mirzə Məmmədoğlu



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "ეენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR
2025-Cİ İL
№ 21 (238)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## PARLAMENT 2026-CI İLİN DÖVLƏT BÜDCƏSİ LAYİHƏSİNƏ BİR SIRA DƏYİŞİKLİKLƏR EDİB



Gürcüstan parlamenti "2026-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsinə bir sıra düzəlişlər edib. Bu barədə ölkənin maliyyə naziri Laşa Xutsişvili parlamentdə məlumat verib.

Nazir bildirib ki, 2026-cı ilin icmal büdcəsinin xərclər hissəsi 35,5 milyard lari təşkil edir və bu çərçivədə dövlətin bütün maliyyə öhdəlikləri tam şəkildə təmin olunur.

Laşa Xutsişvilinin sözlərinə görə, Gürcüstanın 2026-cı il dövlət büdcəsinin ümumi gəlirləri 30 milyard 290,8 milyon lari, dövlət büdcəsindən ayrılacaq vəsaitin həcmi isə 30 milyard 475,9 milyon lari müəyyən edilib.

Layihəyə əsasən, 2026-cı il büdcəsində real iqtisadi artım 5 faiz, ortamüddətli real iqtisadi artım proqnozu isə 5,3 faiz nəzərdə tutulub. ÜDM deflyatoru proqnozu 4 faiz, sonrakı illərdə isə bu göstərici 3 faiz təşkil edir. Gələn il orta inflyasiyanın proqnozu 3,6 faiz, ortamüddətli dövrdə isə hədəf göstərici daxilində 3 faiz proqnozlaşdırılıb.

Layihədə nominal ÜDM proqnozu 110,5 milyard lari səviyyəsində müəyyən edilib. Adambaşına düşən ümumi daxili məhsul isə 10,900 dolları ötüb.

İcmal büdcənin vergi gəlirləri 26,8 milyard lari məbləğində müəyyən edilib ki, bu da ÜDM-in 24,2 faizini təşkil edir. Gələn ilin əsas maliyyə sənədində büdcə kəsiri ÜDM-in 2,5 faizi, dövlət borcu göstəricisi isə ÜDM-in 35 faizi daxilindədir.

Yuxarıda göstərilənlər nəzərə alınmaqla, 2026-cı ilin icmal büdcəsinin xərc hissəsi ümumilikdə 35,5 milyard lari təşkil edir ki, bunun çərçivəsində dövlətin üzərinə götürdüyü öhdəliklər tam maliyyələşdirilir.

Qeyd edək ki, gələn ilin göstəriciləri cari ilin göstəricilərindən xeyli çoxdur. "Gürcüstanın 2025-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsində real iqtisadi artım 5,5 faiz, ortamüddətli dövrdə isə real iqtisadi artımın proqnozu 5,3 faiz təşkil edir. Cari il üçün orta inflyasiya proqnozu hədəf göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır və 1,5 faizdir, ortamüddətli dövrdə isə hədəf göstərici 3 faiz səviyyəsindədir. Nominal ÜDM-in proqnozu 97,4 milyard lari səviyyəsində müəyyən edilib, adambaşına hesablanmış ümumi daxili məhsul isə 9600 dollara yaxındır.

2025-ci ilin birləşmiş büdcəsinin xərc hissəsi cəmi 31,2 milyard lari təşkil edir.

## GÜRCÜSTANIN VƏ TÜRKİYƏNİN SƏHİYYƏ NAZİRLƏRİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİBLƏR




Gürcüstanın işğal olunmuş ərazilərdən məcburi köçkünlər, əmək, səhiyyə və sosial müdafiə naziri Mixeil Sarcveladze Ankaraya rəsmi səfəri çərçivəsində Türkiyənin səhiyyə naziri Kamal Memişoğlu ilə görüşüb. Bu barədə Gürcüstan Səhiyyə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, görüşdə iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlıq və onun genişləndirilməsi imkanları müzakirə olunub.

Mixeil Sarcveladze bildirib ki, Gürcüstan səhiyyə sisteminin inkişafına, təcrübə mübadiləsinə və tərəfdaşlarla əməkdaşlığın dərinləşdirilməsinə böyük önəm verir. O, həmçinin Türkiyənin səhiyyə və tibbi istehsal sahəsində əldə etdiyi irəliləyişlərin əməkdaşlıq perspektivlərini gücləndirdiyini vurğulayıb.

Türkiyə tərəfi də Gürcüstanla mövcud əməkdaşlığı davam etdirməyə və yeni birgə təşəbbüsləri müzakirə etməyə hazır olduğunu bildirib.

Tərəflər səhiyyə və tibb sahəsində regional əməkdaşlığın perspektivlərini də müzakirə ediblər.

Mixeil Sarcveladze səfər çərçivəsində Türk Dünyası Tibb Konqresində də iştirak edib.

## GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCAN ƏLAQƏLƏRİ REGİONAL ƏMƏKDAŞLIĞIN ƏN YAXŞI NÜMUNƏSİDİR



Gürcüstan, Türkiyə və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq regional əməkdaşlığın ən yaxşı nümunəsidir. Bu cür əməkdaşlıq regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına da töhfə verir. Bu fikirlər Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə Türkiyə Böyük Millət Məclisində (TBMM) Gürcüstanla dostluq qrupunun rəhbəri Faruk Çelik və qrupun üzvlərinin görüşündə səslənib.

Görüşdə iki ölkə arasında dostluq münasibətləri və yüksək səviyyədə qarşılıqlı səfərlərin müsbət dinamikası diqqət mərkəzində olub.

Tərəflər Gürcüstan, Türkiyə və Azərbaycan arasında üçtərəfli əməkdaşlığın əhəmiyyətini də vurğulayıblar. Qeyd olunub ki, bu format regional əməkdaşlığın yaxşı nümunəsi olaraq bölgədə təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verir.

Həmçinin regional təhlükəsizlik məsələləri, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh istiqamətində proseslər də müzakirə olunub.

Bölgədə dayanıqlı sülhün bərqərar olunmasının vacibliyi, Türkiyə və Gürcüstanın bu prosesdə mühüm rolu qeyd edilib.



# DİREKTOR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bizdə avtoritarizm orta məktəblərdən başlayır. Əbədi iş yeri olan məktəbin – "balaca dövlətin" daimi sakinləri müəllimlər, əbədi prezidenti isə direktorlardır. Bizdə direktorların məktəbin monarxı olduğu hallara da rast gəlinir. Nə isə...

Gürcüstan qanunvericiliyinə görə, məktəb direktorunun müddəti 6 ildir və eyni şəxsin bir məktəbdə direktorluğa yalnız iki dəfə seçilməsi mümkündür. Necə deyərlər, qanunlar pozulmaq üçündür. Hər halda bu, bizim kimi qanunları yalnız kağızda mövcud olan, kağızda varlığını göstərən, qanunun hamı üçün eyni olmadığı məmləkətlərdə belədir.

Mən birinci sinfə gedəndən məktəb direktoru olan adamlar tanıyıram. Soruşursan, yadındadırmı o vaxt filankəs filan məktəbdə direktor işləyirdi, görsənmir? Cavab verir ki, sağ olmuş, sən yaşlaşmısan, gözlərin yaxşı görmür deyəsən, arada bir məktəbə get, hal-əhval tut, o filankəs yenə də məktəbdə direktordur. Deyirsən, bəs bu məktəbdir, yoxsa qocalar evi, xeyriyyə cəmiyyəti?.. Deyir, dədə malı, baba mülkü, knyazlıq, əmirlik, krallıq...

Axı necə olur ki, aylarla direktor olmaq üçün imtahanlara hazırlaşan enerjili, bilikli, yeniliklərlə ayaqlaşan, perspektivli, kvalifikasiyalı gənclər imtahanı verə bilmirlər, direktor ola bilmirlər, bu ala-yarımçıq rus dilindən başqa xarici dil bilməyənlər, sovet təhsilinin ideoloji çərçivəsindən çıxa bilməyənlər isə bolşeviklərin hakimiyyəti dövründən bu günə kimi məktəbdə direktorluq edirlər...

Az qala hər ay təhsil naziri dəyişən bir ölkə üçün orta məktəb direktorunun müddətinin 6 ay olması çoxdur, üstəgəl bunun ikinci dəfə direktor olmaq imkanı da varsa, lap çoxdur, bir igidin ömrüdür. Təsəvvür edin, 6 yaşında birinci sinfə gedirsən, 17-18 yaşında məktəbi bitirirsən, bu müddət ərzində ölkənin siyasi kursu dəyişir, bayrağı dəyişir, himni dəyişir, 6 prezident dəyişir, 20 təhsil naziri dəyişir, təhsil sistemi dəyişir, məktəb direktorları partiyaları köynək kimi dəyişir, amma məktəbin direktoru dəyişmir ki, dəyişmir.

Yaxşı ki, hələ nazirlik müəllimlər üçün vakansiyalar elan edir, gənc müəllimlər məktəblərdə işə girə bilirlər. Yoxsa, bu naftalin qoxuyan direktorlara qalsaydı müəllim olmaq istəyən gəncləri məktəb üzünə həsrət qoyardılar. Belələri üçün gənc, yeni, müasir, müstəqil kimi sözlərdən təhlükəli söz yoxdur. İmkan daxilində bu sözlərin idarə etdiyi məktəbə daxil olmasının qarşısını almalı, iyirmi-otuz il idarə etdiyi məktəbin əhliləşdirdiyi müəllimləri arasında fənləri, saatları elə bölüşdürməlidir ki, vakansiyaya – yeni müəllimə ehtiyac olmasın. Məsələn, idman müəllimi təsviri incəsənəti, fransız müəllimi ingilis dilini, ədəbiyyat müəllimi fizikanı və sair "tədris edə" bilər.

Beləliklə, bizləri avtoritar rejimə orta məktəbdən öyrədirlər. Birinci sinifdən 11-ci, 12-ci sinfə qədər eyni direktorun diktaturası ilə idarə olunan məktəbin məzunu, məsələn, Şimali Koreyada da yaşasa özünü rahat hiss edəcək.

Ümumiyyətlə, hansı müəssisə olursa olsun, eyni adam 3-4 ildən artıq direktor, müdir, rəhbər işləməməlidir. Eyni adamın 20-30 il rəhbərlik, müdirlik, direktorluq etdiyi idarə, müəssisə heç vaxt inkişaf edə bilməz, yenilənə bilməz, irəli gedə bilməz, naftalin iyi verər. Ən acınacaqlısı da odur ki, həmin müəssisənin əməkdaşları, işçiləri kresloya pərçimlənmiş müdirə, rəhbərə, direktora etiraz etməyənə kimi, istefaya göndərməyənə kimi naftalin iyinə öyrəşirlər, bu iy onların da üstünə-başına çökür, vaxt uzandıqca özləri, düşüncələri də naftalin iyi verir.

# ALLAHIN ÜMİDİNƏ QALAN BAŞKEÇİD



Ağır Borçalı mahalının başlanğıcında, qarlı dağların ətəyində, əli əllərdən üzülən, qayğıdan, diqqətdən məhrum qalan bir Başkeçid var. Bir zamanlar coşub-daşan, sürüləri dağları ağardan, naxırları yolları toza bürüyən, toy-büsatlı, babaların adətinə bağlı, harayı dağlardan eşidilər Başkeçid elləri bu gün sanki tarixin sükutuna qərq olub. Təbiətin bütün çətinliklərinə dözüb dayanan bu xalqı, zəmanənin çətinlikləri lap bimar edib. Müasir tələbatlar o qədər böyüyüb ki, artıq əvvəlki həll yolları nəticə vermir. Hər dövrün öz tələbatı olur. Bu gün insanlar tək həyatda qalma, ruzisini daşdan da olsa çıxarma qayəsi uğrunda yaşamır. Dövrümüz tərəqqi dövrüdür. Niyə şəhərdə yaşayan gənc dövrün ahənginə uysun, kənddə yaşayan gənc isə bundan məhrum qalsın? Kəndlərimizin ən böyük problemi bu gün budur. Xüsusilə dağ kəndləri.

Başkeçidin kəndlərinin əksəriyyətində bu gün yol, su kimi zəruri ehtiyaclar yoxdur. Məktəbi olmayan kəndlərin sayı da xeyli çoxdur. Bütün problemlərə rəğmən Başkeçid gəncləri yüksək nəticələrlə dövlət universitetlərinə qəbul olurlar. İndi düşünün, bu gənclər üçün bütün imkanlar yaradılsa hansı nəticələri əldə edərlər? Bəs günahkar kimdir? Dövlət? – Xeyr! Günah özümüzdədir. Günah valideynlərdədir.

Başkeçidin bütün kəndlərində əhalinin yüksək bir qismi sosial yardım alır (əksər kəndlərdə 80-90 %-ə yaxın). Dmanisi isə kiçik büdcəsi olan kiçik bir bələdiyyədir. Sosial yardıma bu qədər büdcə ayırması böyük işdir. Bəs həqiqətən bu ailələrin hamısı sosial yardım almalıdırmı? – Məncə, yox. Çünkü fiziki iş qabiliyyəti olan bir kişi ailəsini saxlamaq üçün bir iş tapmalıdır. Kənddə işini qurmalı, qura bilmirsə şəhərdə bir iş tapmalı, tapa bilmirsə ölkə xaricində bir iş tapmalıdır, sosial yardım almalı deyil. Sosial yardım xəstələr, işləmə qabiliyyəti olmayanlar üçündür. Bələdiyyə həmin sosial yardıma ayırdığı büdcəyə kəndlərə yol çəksə, su çəksə əhali üçün daha effektiv proyekt olacaqdır. Lakin əhali yol üçün, məktəb üçün, su üçün dava qaldırmır, sosial yardım üçün dava qaldırır. Ailədə 3-4 cavan oğlan ola-ola sosial yardım alanlar var. Bu, düzgün proyekt deyil.

Sosial yardım isə ailələrdə bir stabillik yaradır. Yəni ailə maddi cəhətdən irəli getmir. Aydan-aya sosial yardımını alır, oturur evində. Bu yardım məsələsi ailələri ciddi bir asılılığa gətirib çıxarıb. Kənddən və bələdiyyə mərkəzindən başqa heç yerlərlə əlaqələri olmur. Tiflisi ümumiyyətlə tanımırlar. Amma işləmək, ticarət etmək üçün Tiflisə və ya başqa şəhərə getsələr zəmanənin dinamikasına ayaq uydura bilərdilər. Axı sosial yardımı alıb evində oturan, fiziki qüsuru olmayan bir şəxs necə inkişaf edə bilər?

Maddi stabilliklə yanaşı mənəvi stabillik də yaradır sosial yardım. Yardımım kəsilməsin deyə heç nəyə səs çıxarmayan insanlarımız var. Sanki bütün həyatlarını buna bağlayıblar. Deyəndə isə "dövlətin puludur, niyə almayım" deyirlər. Axı dövlətin pulu ilə daha yaxşı nəticələr əldə edə bilərik. Tələb edək dövlətin pulu ilə yol çəkilsin, məktəblər tikilsin, ibadətxanalar tikilsin, mədəniyyət evləri tikilsin. Bizim gələcəyimizin inkişafı bu cür proyektləri zəruri qılır. Bələdiyyə mədəni sahələrə də böyük diqqət yetirir. Son vaxtlarda Başkeçiddə böyük inkişaf olduğunu görürük, amma bu sosial yardım bələdiyyə üçün də ağır yükdür.

Bu maddi asılılıq insanlarımızın azad düşüncə haqqını da əlindən alır. Ağızlarından çıxan hər sözü ölçüb-biçmək məcburiyyətində qalırlar ki, birdən bu sözümə görə yardımım kəsilər. Təhsilini davam etməyib sosial yardım ümidi ilə yaşayan gənclərimiz dövlət dilini bilmir və bunun üçün çox çətinlik çəkirlər. Son zamanlar bu ətalətin yaratdığı problemlər daha aydın görünür. Çünkü, yaxşı yadımdadır, biz uşaq olanda sosial yardım yox idi, amma maddi çətinliyə baxmayaraq kəndimizin əhalisi çox dinamik, aktiv idi. Ticarətlə məşğul idilər, işləməyə gedirdilər, təsərrüfat çox idi. İndi təsərrüfat da çox azalıb. 15 il əvvəl hər ailə yarım hektar kartof əkirdisə, bu gün hər ailə 200 m² (2 sot) kartof əkir, hər ailənin 6-10 inəyi vardısa, bu gün 1-2 inəyi var. Kənd təsərrüfatına dəstək verib, pulsuz örüş yerləri vermək əvəzinə əhaliyə sosial yardım verib təsərrüfatı məhv etmək bizə hansı faydaları verə bilər?

Bu asılılıq və ətalət aradan qalxmadıqca Başkeçidin kəndləri inkişaf etməyəcək. Gələcək gənclərin əlindədir. Gənclərimiz maariflənsə bu problemlərin həlli yolunu tapacaqlar.

**Cəlal YADİGARLI**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# RUHU OLMAYAN ELMİN TƏHLÜKƏSİ



Almaniyada bir məktəb müdiri hər tədris ilinin əvvəlində müəllimlərə məktub göndərir. Məktubun ilk cümləsi insanlığa sərt bir həqiqəti xatırladır: “Təhsil hər bir toplum üçün vacibdir, lakin onu necə istifadə edəcəyimiz bundan da önəmlidir”.

Bu sözlər təsadüfi deyil. Məktubun müəllifi əsir düşərgəsində heç bir insanın görməməli olduğu səhnələrə şahid olub:

Yaxşı təhsil almış mühəndislərin inşa etdiyi qaz kameraları;

Yaxşı yetişdirilmiş həkimlərin zəhərlədiyi uşaqlar;

Peşəsini mükəmməl bilən tibb bacılarının iynə ilə öldürdüyü körpələr;

Universitet məzunlarının güllələyib yandırdığı insanlar...

Bütün bunlardan sonra müəllimlərə belə səslənir: “Şagirdlərinizin ilk növbədə yaxşı insan olması üçün çalışın. Səyləriniz bilikli canavarlar və bacarıqlı psixopatlar yetişdirməsin. Oxuyub-yazmaq yalnız uşağın daha çox insan olmasına xidmət edirsə dəyər qazanır”.

Hər şeyin bir ruhu olduğu kimi, elmin də ruhu var. Ruhu olmayan elm insanı dünyanın ən təhlükəli varlığına çevirir.

Elmin ruhu – bilginin insana, cəmiyyətə və bəşəriyyətə fayda verməsidir. Bəşəriyyətə fayda gətirməyən elm qatilin əlində silah kimidir. Ruhu olmayan tibb həkimi xəstəyə yalnız “müştəri” kimi baxmağa sövq edir. Ədalət duyğusu olmayan hüquq isə vəkili zalımı müdafiə etməyə aparır. Bütün bunlar cəmiyyətin pozulmasına və dəyərlərin çöküşünə səbəb olur.

Tarix göstərir ki, bəşəriyyət yalnız elm mənəviyyatla birləşəndə tərəqqi edib. Amma bu gün vəziyyət daha təhlükəlidir. İnsanlıq həm elmdə, həm də mənəviyyatda geriləmə dövrü yaşayır. Texnologiya bu qədər inkişaf etdiyi halda necə olur ki, elm geriləyir? – deyə soruşa bilərsiniz. Əslində, texnologiyanın sürətli inkişafı və insanın onu düzgün istifadə edə bilməməsi həm mənəviyyatı, həm də zehni inkişafı yavaşladan ən böyük maneədir. Cəmiyyətin bir hissəsi sosial medianın təsiri ilə şiddətə meyillidir, digər hissəsi isə milli və mənəvi dəyərlərdən uzaqlaşır. Doğru istifadə edilmədikdə süni intellekt insanın düşünmə, araşdırma və bilgi yaratma qabiliyyətinə ciddi təhlükə yaradır. Bütün bunlardan çıxan nəticə aydındır: insanlığın formalaşmasında müəllimlərin və təhsil ocaqlarının təsiri azalır, sosial medianın təsiri isə artır.

Bu gün təhsil ocaqları sosial media qarşısında aciz qalırlar. Bunun iki səbəbi ola bilər:

1. Texnologiya sürətlə inkişaf edir, lakin təhsil müəssisələri özünü yeniləyə bilmir. Yenilənmə fiziki yox, fikir və tədris sistemi yönündə olmalıdır. Lakin bir çox təhsil ocağında sual belə dəyişib: “Kim necə yetişdirilir?” yox, “Kim nə qədər ödəyir?” Bu yanaşma insanlığa hansı dəyəri verə bilər? Bu, gələcəkdə bizi gözləyən təhlükənin ən açıq xəbərçisidir.

2. Tərəfkeşlik və təəssübkeşliyin ön plana çıxması. Ləyaqət arxa planda qaldıqca sosial media üstünlük qazanır.

Bunlar, təhsil həyatım boyunca gördüyüm və analiz etdiyim müşahidələrimdir. Əlbəttə, hər insanın təhsildə qarşılaşdığı problemlər və gördüyü nüanslar fərqli ola bilər. Amma bir həqiqət aydındır: gələcəyin insanlığı yalnız vicdanlı, milli və mənəvi dəyərlərə sahib müəllimlərin əlinə etibar edilə bilər.

Unutmayaq ki, insanlığın çarəsi vəzifəsini müqəddəs bilən yetişmiş bir ovuc müəllimdir.

**Tural QASIMOV**
*İlahiyyatçı*

# GÖRÜB-GÖTÜRƏN GƏNCLİK



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Bu gün cəmiyyətin qarşısında duran iki əsas sual var: dəyərlərimizi kim qoruyacaq və gənclik əslində nə axtarır? Bu suallar sadəcə müzakirə mövzusu deyil, onlar birbaşa bizim gələcəyimizin yolunu cızır.

Son günlər ard-arda bir neçə toy mərasimində iştirak etmək məni bu mövzu barədə daha dərindən düşündürdü. Gənclərin bir-birindən fərqli davranışları mənim üçün həm narahatlıq, həm də ümid doğurdu.

Bəzi gənclərin avtomobil idarə etməsindəki qaydasızlıq, insanların təhlükəsizliyini heçə sayaraq etdikləri təhlükəli manevrlər, yaşlarının kiçik olmasına baxmayaraq ifrat miqdarda spirtli içki qəbul edib özlərinə nəzarəti itirmələri, davranış və danışıqda hiss olunan hörmətsizlik – bunlar cəmiyyətin dəyərlər sistemində yaranan çatların kiçik bir göstəricisi kimi göründü mənə.

Ancaq eyni toyda başqa mənzərə də vardı: özünü çox ədəbli aparanlar, mədəni və məntiqli danışan, spirtli içkidən uzaq duran, səliqəsi və halı ilə hörmət oyadan gənclər. Bu iki zidd mənzərə bir daha onu göstərdi ki, gənclik yekcins bir kütlə deyil – kimisi axtarış içindədir, kimisi istiqamətini tapıb, kimisi isə hələ də hansı dəyərlərin arxasıyca düşəcəyinə qərar verməyib.

Məhz bu nöqtədə “dəyərlərimizi kim qoruyacaq” sualı öz cavabını tapmağa başlayır. Dəyərlər gənclərə sərt qadağalarla deyil, nümunə ilə ötürülür. Gənc davranışını toplumun ondan nə tələb etdiyinə görə deyil, gördüyü nümunələrin ona nə öyrətdiyinə görə formalaşdırır. Toylarda, küçədə, ailədə, sosial mediada, gəncin hər yerdə gördüyü nümunələr onun kimlik kompasını yenidən tənzimləyir.

Gənclik axtarır, amma nəyi?

Onlar özünü ifadə edə biləcəyi bir mühit, soruşduqları suallara səmimi cavab, yeni dünyanın sürəti içində itirməyəcəkləri bir kimlik arayırlar. Cəmiyyət isə bəzən ya onlara qulaq asmır, ya da yalnız tənqid etməklə kifayətlənir. Halbuki gəncin davranışı tənqidə deyil, istiqamətə, anlayışa və düzgün nümunəyə ehtiyac duyur.

Əslində bu proses iki tərəfli məsuliyyətdir: cəmiyyət dəyərləri gənclərə təqdim etməli, gənclik isə onları öz həyatına daşımağı öyrənməlidir. Bu körpü qırıldıqda gənclərin bir qismi ifrat sərbəstlikdə özünü itirir, digər qismi isə sağlam dəyərlərlə yüksəlməyə davam edir.

Bir həqiqət dəyişməzdir: gənclər dəyərlərimizi qoruyacaq, amma biz onlara hansı dəyərləri göstəririksə, onlar da onu yaşadacaqlar.

# TDU BİRİNCİ KURS TƏLƏBƏLƏRİNƏ VACİB OLAN GÜRCÜ DİLİ KURSUNU HANSI ŞƏKİLDƏ TƏKLİF EDİB? – "GÜRCÜ DİLİ AKADEMİK MƏQSƏDLƏR ÜÇÜN"

**Tbilisi Dövlət Universitetində (TDU) gürcü dilinin məcburi fənn kimi tədrisi payız semestrindən başlayıb. Bu öhdəlik ali təhsil müəssisələrinə cari ilin iyunundan qanunla müəyyən olunub – universitetlərdə gürcü dilinin tədrisi yenidən məcburi oldu və bu, bütün gürcüdilli təhsil proqramlarının tələbələrinə aiddir.**

**Tələbələr dövlət dilinin xüsusi kursunu tədrisin birinci akademik ilində, azı bir semestr müddətində keçməlidirlər (birinci və ya ikinci semestrdə). Dövlət dilinin tədrisi isə yeni tədris kursunun hazırlanması və ya mövcud tədris kursunun dəyişdirilməsi yolu ilə həyata keçirilməlidir.**

**Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzdən indiki mərhələdə bizə cavab vermirlər ki, neçə universitet birinci semestrdən etibarən kursu hazırlayıb və tətbiq edib. Lakin Tbilisi Dövlət Universitetinin timsalında daha çox məlumat əldə edə bildik.**

**İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Keyfiyyətin təmin edilməsi xidmətinin rəhbəri Şota Potolaşvili bildirib ki, dövlət dili kursunun həyata keçirilməsi üçün hazırlığa yayda başlayıblar və bu, bir çox fakültələrdə artıq həyata keçirilib.**

**Şota Potolaşvili:** "Bizim üçün proses daha sadə oldu, çünki gürcü filologiyası üzrə sahə istiqamətimiz var, tələbələrə dərs keçirik və buna uyğun olaraq sillabusun *(Sillabus – ali məktəblərdə, gimnaziya və liseylərdə tədris olunan fənlərin, keçilən konkret mövzuların izahını müəyyən şərhlərlə verən xüsusi proqram – Red.)* hazırlanması xüsusi çətinlik yaratmırdı. İlk mərhələdə əsas sillabusu humanitar elmlər fakültəsi – gürcü filologiyası istiqaməti hazırladı. Prosesə müvafiq mütəxəssislər də cəlb olunmuşdu. TDU-da bu tədris kursunun və akademik dairənin bir hissəsinin müəyyən bir kombinasiyasını yaratdıq. Sillabusu elə şəkildə tərtib edib tələbələrə təqdim etmişik ki, onu praktik olaraq artıq həyata keçiririk. 7 fakültədən 3 fakültədə bu semestrdən başladıq, qalan 4 fakültədə isə ikinci semestrdə başlamağı planlaşdırırıq ki, həm mühazirələrin oxunması üçün lazım olan insan resursu, həm də digər maddi-texniki resurslar düzgün bölüşdürülmüş olsun. Buna uyğun olaraq, bizdə bu kurs modifikasiya olundu – birbaşa "Dövlət dili kursu" adlanmır, onun adı "Akademik məqsədlər üçün gürcü dili"dır.

Fərqli fakültələr öz spesifikasını nəzərə aldılar, daha sonra isə bu əsas sillabusu digər fakültələrlə paylaşdıq və onlar öz ehtiyaclarına uyğun şəkildə dəyişiklik etdilər".

**– Hansı tədris proqramının tələbələri üçün gürcü dili kursu birinci semestrdən başlayıb?**

– Humanitar elmlər fakültəsi, sosial-siyasi elmlər fakültəsi və psixologiya, təhsil elmləri fakültəsi. Hüquq, iqtisadiyyat, tibb – dəqiq və təbiət elmləri fakültələrində bu kursu artıq yaz semestrində başlayacağıq.

**– Konkret məsələlərdən danışsanız, dərsin gedişində nə baş verir? Tələbə nə öyrənir, hansı biliyi əldə edir və hansı fəaliyyətlər nəzərdə tutulub?**

– Mövzulara gəldikdə, sillabusda yer alan məsələlər təsdiqlənmiş qaydada göstərilən mövzuları – həmin 4 məsələni *(1. Ümumi hissə. 2. Ədəbi dilin normallaşdırılması problemləri. 3. Stilistika. 4. Gürcü elmi terminologiyası. – Red.)* – tam şəkildə əhatə edir və bundan əlavə, digər mövzular da inteqrasiya olunub. Təbii ki, biz qanunvericiliklə müəyyən edilmiş nəticələrə əsaslanırıq, lakin bu öyrənmə nəticələri mütləq universal və unikal olmaya da bilər; əlavə olaraq başqa öyrənmə nəticələrinə də yönələ bilər. Əlbəttə, bütün bunlar kredit həcminə uyğun şəkildə hesablanır: daha sonra kreditlərin sayı saatlara vurulur, mühazirə-seminar saatlarına bölünür və s.

**– Mühazirə prosesi haqqında birbaşa məlumat verərdiniz, məsələn, tələbənin kurs daxilində öyrənməli olduğu məsələlər hansılar ola bilər, bunun konkret bir müəllifin işi, tezisi olması mümkündürmü, TDU-nun xüsusi dövlət dili kursu bu baxımdan nəyi nəzərdə tutur?**

– Nümunələrə gəldikdə isə, tədris və öyrənmə metodları fərqlidir, müxtəlifdir. Məsələn, gürcü dilinin tarixi, gürcü dilinin normaları, normallaşdırma problemləri var. Bunlar arasında müzakirə, qarşılıqlı əlaqə, dinləmə də daxil olmaqla sual-cavab rejimi, texniki hissə, verilənlər bazaları haqqında biliklər, müvafiq elektron resurslarla tanışlıq da ola bilər. Burada tələbələrin imkan və əlçatanlıq əldə etmələri üçün texniki element də təqdim olunur.

Tədris kursu dövlət dilinin universitet kursunun təsdiq edilmiş mövzularına və akademik yazı üzrə universitet standartlarına uyğun olaraq hazırlanmışdır və məqsədi gürcü dilinin dövlət dili, elm, təhsil dili kimi fəaliyyətinin aspektlərini vurğulamaq, tələbənin gürcü dilindən akademik məqsədlər üçün istifadə etmək qabiliyyətini inkişaf etdirmək, beynəlxalq təcrübədə müəyyən edilmiş akademik yazı prinsiplərini təqdim etmək və s.-dir.

Kurs tələbələrə dilin normallaşdırılmasının əsas məsələlərini, funksional üslubları və onların praktiki reallaşdırılması yollarını mənimsəməyə, akademik və elmi mətnlər yaratmaq bacarıqlarını inkişaf etdirməyə, sahəyə xas termin yaradıcılığının əsas prinsiplərini, mexanizmlərini mənimsəməyə, gürcü ədəbi dilinin inkişaf tarixini, müasir vəziyyətini və s. anlamağa imkan verəcək.

Tədris kursu müasir tədris metodlarına əsaslanır. Tələbələr mühazirələrdə iştirak edəcək, qrup işləri aparacaq, müstəqil yazı işi həyata keçirəcək, ara və yekun test/imtahanlara cəlb olunacaqlar. Bu proseslərin həyata keçirilməsi üçün müxtəlif metodlardan istifadə olunur: şifahi (verbal) üsul, müzakirə, debatlar, fikir fırtınası (brain storming), təqdimatlar, əməkdaşlıq yolu ilə öyrənmə, təcrübəyə əsaslanan öyrənmə



və s.

Kurs tələbənin tədqiqat və analitik bacarıqlarının inkişafını təşviq edir. Tələbə etibarlı və müxtəlif mənbələrlə işləmək, müxtəlif elmi dillərdə və üslublarda yaradılmış mətnləri, terminologiyanı, akademik, elmi məzmun məlumatlarını təhlil etmək və s. bacarığına yiyələnəcək. Bu prosesdə tələbə tədqiqatın məqsəd və vəzifələrinə uyğun metodlar seçməyi öyrənir ki, bu da onun akademik özünəinamını, tədqiqat bacarıqlarını gücləndirir.

Tədris prosesi zamanı tələbə akademik və tədqiqat məsələlərini anlamaq, onları yazılı şəkildə çatdırmaq üçün praktik olaraq dövlət dilindən istifadə edir. Qeyd etmək lazımdır ki, humanitar elmlər fakültəsi və onun müvafiq istiqaməti yuxarıda qeyd olunan kursun vaxtında və effektiv şəkildə hazırlanmasında xüsusi rol oynayır.

Qeyd etmək lazımdır ki, sözügedən kursun vaxtında və effektiv hazırlanmasında xüsusi rol humanitar elmlər fakültəsinə və onun müvafiq istiqamətinə aiddir.

*Mənbə: edu.aris.ge*

Gürcü dilində tərcümə etdi

**Aynurə Əliyeva**

# COŞQU, HƏYƏCAN, ÜMİD, SEVİNC



Ömrümüzü fəsillərə, aylara böldük. Bölük-bölük illərin, ayların içində sevincli, kədərli günümüz oldu. Təqvimlər qəbul edəndə, ayları yazanda heç ağlımıza gəlməzdi ki, noyabr ayı Azərbaycan xalqı üçün sevinc ayı olacaq. Çox maraqlıdır ki, bayramlar ayı özündə dörd tarixi günü birləşdirdi, özü də sondan önə doğru, həm də tarixi keçidləri, nəticələri də təsadüfi bir ardıcıllıq yaşadı. Rəqəmlərin silsiləsi ilə qərarların qəbulu təsadüfi ardıcıllıq təşkil etdi.

Hadisələr geriyə dönüşlə qələbəyə doğru getdi, sanki dedi ki, mən özümə dönürəm, mən qalib millətəm. Mən gəlirəm. Axı bütün qaliblər geridən sürətlə irəli gəlir. Bu məcazi bir keçid də olsa təsadüfün bir ardıcıllığıdır. Aqillər deyər həyatda heç bir təsadüf yoxdur.

Gəlin noyabrın təsadüf kimi qəbul etdiyimiz tarixi keçidlərinə baxaq.

### *1. XALQ BİR OLSA DAĞ OYNADAR YERİNDƏN.*

Bu həmin gün idi, illərlə susdurulan xalq ayağa qalxmışdı. Bu həmin gün idi, küçələr, yollar insan kütləsiylə nəfəsləndi. Bu həmin gün idi, insanlar "Azadlıq" deyə hayqırırdı. Bu həmin gün idi, kimin düz, kimin məqsədli olduğunu bilməyən xalq ölümə getməyə hazır idi. Bu həmin gün idi, "Türkmənçay"ın, "Gülüstan"ın bağladığı sərhədlər otaylı-butaylı Xudafərində lərzəyə gəldi. Bu həmin gün idi, günlərlə tonqallar ətrafına yığılan tələbə gənclik, fəhlə tətilləri dirçəlmişdi; Topqapının sədasına, Sumqayıtın şər səsinə, məcburi köçkünlüyün ah-naləsinə birlik oldu.

1988-ci ilin 17 noyabrında başlayan xalq hərəkatı sönmədi, tarix yazdı. Oraq-çəkicli bayraqla meydana çıxan yüzminlərlə insan 1918-1920-ci illərin üçrəngli bayrağını meydana gətirdilər. Leninin abidəsiylə tanınan Lenin meydanında – Azadlıq meydanında insanların azadlıq istəyi, sevgisi, məğrurluğu elə bir dəniz yaratdı ki, onun sədası silkələnən dünyanın siyasi səhnəsində ən öndə oldu. Hətta ABŞ-nin "Newsweek" jurnalı Azərbaycan xalqını "İlin xalqı" adlandırdı. Bu, heç də kiçik iş deyildi. İllərlə müstəmləkə olan xalq öz sözünü dedi, özü də tarix yazaraq dedi. Dirçələn xalq hərəkatı bir nəticəyə aparırdı. Bu nəticənin nəticəsini zamanla görəcəkdik.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ildən prezidentin fərmanı ilə 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd edilir.

### *2. QANUN ŞAHDIR.*

Süleyman Qanuni Şərqdə ilk konstitusiyanı yazsa da, Şərqin ilk demokratik respublikasının konstitusiyasını yaratmağa zamanı çatmadı. Azərbaycan SSR konstitusiyasını isə 1921-ci ildə qəbul edir. Azərbaycan müstəqil respublika kimi öz konstitusiyasını 1995-ci il 12 noyabrda qəbul etdi və 12 noyabr Konstitusiya Günü kimi qeyd olunur.

### *3.ÇIRPINIRDI QARA DƏNİZ...*

Qədim Şərqdə ilk demokratik respublika 1918-ci ilin 28 mayında elan olundu və bayrağın yaradıcısı Əli bəy Hüseynzadə belə yazırdı: "Türk hissiyatlı, islam etiqadlı, firəng qafalı" dövlət (bəlkə də Fransa inqilabına istinadən firəng qafalı deyirmiş).

ADR-in yaranmasının 1 illiyində Üzeyir Hacıbəyli bayrağımızın rənglərindən yazırdı ki, bayrağımızda mavi türklüyümüzü, yaşıl islamı, qırmızı müasirliyimizi ifadə edir.

1990-cı ilin 17 noyabrında Naxçıvan Ali Məclisində ilk dəfə bayraq Naxçıvan MR bayrağı kimi qaldırıldı və 1991-ci ildə isə Azərbaycan Ali Məclisi tərəfindən milli bayraq qəbul edildi. Nəhayət, 2009-cu ilin 17 noyabrında 9 noyabr Dövlət Bayrağı Günü kimi təsis edildi, dünyanın ən yüksək bayrağı Bakı şəhəri dənizkənarı parkda ucaldı və Bayraq Meydanı adlandırıldı.

### *4. HAQQ NAZİLƏR, AMMA ÜZÜLMƏZ!*

17 noyabrda başlayan xalq hərəkatı dünya siyasətində öz möhrünü vurdu. İlin xalqı elə bir yol seçmişdi ki, bu yol 20 Yanvara gedirdi. Xalqın səsini tarixə yazacaq o gün yeni günlər doğuracaqdı. Bax, beləcə bu günkü varlığımızın təşnəsi o gündən başladı. Milli Dirçəliş Günü dedilər o günə. Dirçələn millət ov tüfəngi ilə haqq savaşına qalxdı. Haqq səsini ədalətin tərəzisinə çıxarmaq üçün 30 il zaman gözlədi.

2020-ci ildə 44 günlük böyük addımlar atdı. O addımlar zəfərə gedən yol oldu və 44 günə Azərbaycan Respublikası dünya tərəfindən tanınan sərhədlərini bərpa etdi. 8 Noyabr – Zəfər Günü kimi Azərbaycanda bayram edilir.

Bu gün Azərbaycan KİM sualına fəxrlə cavab verir. Bax, o kimliyin açarı milli diçəlişdən başlayır. Həmin günün iştirakçılarına minnətdarıq hamımız. Mübarizliyimiz xoş nəticə verdisə, nə xoş XALQ adımıza.

Mən öz adımdan hamınıza təşəkkür edirəm!

Xalq hərəkatı iştirakçıları, siz tarixi yaşadınız, biz öyrəndik, qeyrətli oğullar sayəsində ZƏFƏR yaşadıq. Payızın son ayı Azərbaycan tarixində belə yazıldı. Yaşa, var ol, AZƏRBAYCAN!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "KEÇMİŞDƏN GƏLƏN OĞLAN" – MÜASİR UŞAQLIĞIN TƏFƏKKÜRÜNƏ TUTULAN GÜZGÜ



Ayın 26-da Qardabani Mədəniyyət Evində Gürcüstanda yeganə azərbaycandilli uşaq teatrı olan "Beez" Uşaq Teatrı növbəti dəfə sosial əhəmiyyətli bir mövzunu səhnəyə gətirməklə diqqətləri öz üzərinə topladı. Gənc şair və yazıçı, həmçinin "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlunun eyniadlı pyesi əsasında hazırlanan "Keçmişdən gələn oğlan" tamaşasının rejissoru Binəli İslamoğludur.

Tamaşa ilk baxışdan sadə uşaq əsəri təsiri bağışlasa da, əslində həm uşaqların, həm də böyüklərin gündəlik həyatında ciddi narahatlıq doğuran bir problemi – texnologiya asılılığı və uşaqların sosial-əxlaqi inkişafındakı boşluqları bədii və təfəkkür yönümlü şəkildə səhnələşdirirdi.

Tamaşada hadisələr teatra gecikərək bilet almağa çalışan pionerin keçmişdən günümüzə gəlməsi ilə başlayır. O, bilet üçün kassaya yaxınlaşanda şüşəyə bərk-bərk vurur və kassir qız əvvəlcə milis çağırmaq istəyir, lakin tezliklə pionerin məqsədinin sadəcə bilet almaq olduğunu başa düşür.

Daha sonra kassir qızın monoloqu tamaşanın sosial mesajını açıq göstərir: onun teatr mədəniyyətinə marağın zəifləməsi ilə bağlı ironik giley-güzarı, tamaşaçıların gecikməsi, yerinə oturmaması, səssizliyin təmin olunmasının çətinliyi və s. Əslində onun monoloqunda əks edilən səhnələri biz tamaşa başlamazdan ən azı yarım saat əvvəl tamaşaçıların nümayiş etdirdiyi "səhnədə" izləmişdik və bu "Keçmişdən gələn oğlan" tamaşasının həm real həyatı əks etdirdiyini, həm də problemə diqqət çəkdiyini nümayiş etdirən ilk sosial mesaj idi. Kassirin "Tamaşalar 5-də başlayır yazılsa da, biz 6-da yığışırıq" sözləri həm yumor, həm də ironiya ilə dolu digər bir kritik mesaj idi və doğrudan da o gün yaşanmışdı.

Tamaşanın mərkəzində yuxarıda qeyd etdiyim keçmişdən gələn, həyatın təbii ritmində böyüyən məktəbli pioner dayanır. O, müasir dövrdə uşaqların mobil telefon və kompüter oyunlarına həddindən artıq bağlı olmalarını, açıq havada oynamaqdan uzaq düşmələrini, hətta ayaqla futbol belə oynaya bilməmələrini, kitab oxumaqdan uzaqlaşmalarını və teatr kimi ənənəvi sənət növlərinə maraqlarını itirmələrini gözləri ilə görür.

Süjetin gedişatında pioner digər uşaqlarla qarşılaşır. Bir oğlan onu pleysteyşn oynamağa aparır, lakin oyun onu məmnun etmir və tez bezir. O, digər uşaqlara yaxınlaşır, onların telefona tam konsentrasiya olmaları pionerin diqqətini çəkir və səssizliyi ilə fərqlənən bir sosial görüntü ortaya qoyur. Bu səhnədə pionerin heyrəti "Bura haradır? Siz niyə susursunuz?" – deyə kədərli tonla səsləndirdiyi sualları sadəcə dramaturji detal deyil, tamaşanın əsas mesajını daşıyan simvolik monoloq idi.

Daha sonra pioner kitab oxuyan qızla qarşılaşır və onun əlindəki "Balaca şahzadə" kitabını görür. Kitabı oxumaq üçün icazə istəyir və qıza kitabı qaytaracağına, onu yazmayacağına və cırmayacağına söz verir. Bu hadisə həm müasir uşaqlığın texnologiya ilə dolu dünyasını, həm də klassik ədəbiyyatın daşıdığı dəyərləri qarşı-qarşıya qoyur və tamaşanın vurğuladığı əsas ideyanı kitab sevgisinin və mədəni dəyərlərin hələ də yaşadıla biləcəyini simvolizə edirdi.

Sonra qız pioneri nənəsinin yanına aparır, çünki onun geyimi və davranışları nənəsinin keçmiş dövr xatirələrini xatırladır və pionerin qarşılaşdığı vəziyyətlərdə ona kömək edə biləcəyini düşünür. Nənə obrazının başa düşmək olar ki, qızın həmyaşıdlarından fərqlənməsində və klassik dəyərlərə yaxın olmasında nənəsinin rolu böyükdür. Lakin valideynləri ilə nənənin yaşadığı dövr arasında yenə də konflikt mövcuddur.

Əsərin sonlarında qızın nənəsi pionerə kömək edir, ona öz zamanına qayıtmaq üçün yol göstərir. Ona biletini qapının altından keçirərək öz zamanına qayıda biləcəyini deyir, amma qəhrəmanımız biletini itirib. Bileti axtarmaq üçün getmək istəyəndə qız kitabını ona hədiyyə edir və pionerimiz ona təşəkkürünü bildirərək biletini axtarmağa gedir. Burada o ilk tanış olduğu oğlanla qarşılır, hansı ki, bileti o tapıb...

Dostu bileti ona verir, onlar vidalaşırlar, qapı açılır və keçmişdən gələn oğlan öz zamanına qayıda bilir. Amma onun kitabı – "Balaca şahzadə" burada qalır. Pleysteyşn oynayan oğlan kitabı götürüb adını hərfləyərək oxuyur və heyifsilənərək deyir: "Bilirsiniz, mən anamdan kitab almağını istəmişdim, amma anam almamışdı". Bu da uşaqların kitabdan uzaqlaşmasında valideynlərinin necə rol oynadığının açıq sübutudur. Sonda dost obrazını canlandıran qəhrəmanımız səhnədə görünür və monoloqu ilə və telefonu tullayaraq səhnədən çıxır. Bununla simvolik olaraq texnologiya asılılığını rədd edir və sadə, təbii həyatın üstünlüyünü vurğulayır.

Tamaşa yalnız uşaqlar üçün deyil, həm də valideynlər üçündür. Tamaşada övladlarla daha çox vaxt keçirmək, kitab oxumaq vərdişinə həvəsləndirmək, real ünsiyyət və sosial bacarıqları gücləndirmək, uşaqları virtual deyil, real oyunlara cəlb etmək açıq mesajlar olaraq təqdim edilir. Bunları bir tamaşaçı kimi izlədikdə bəzi valideynlərin uşaqların telefona konsentrasiya olduqları səhnələrdə uşaqlarını məzəmmət etdiklərinin şahidi oldum. Məncə, mesajlar adresatlarına çatmışdı, geridə qalan bunlara nə qədər əməl edəcəkləridir.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi*



# CƏMİYYƏTİ BİR-BİRİNƏ FIRLATDIRAN PLATFORMA

Yəqin çoxunuz xatırlayırsınız, bir vaxtlar sosial şəbəkələrdə "bu videonu 10 nəfərə göndər, 1 saata xoş xəbər alacaqsan" dövrü vardı. O zaman hamı bir-birinə eyni videonu atırdı, heç kəs də nə baş verdiyini bilmirdi. Kontaktında kim var idisə hamıya göndərirdilər. Gündə on dəfə eyni videonu görməkdən bezmişdik, telefona bildiriş səsi gələndə adamı əsəb tuturdu. İndi həmin ssenarinin modern versiyası qayıdıb – "Temu" çarxı çıxıb. Pulsuz hədiyyə üçün caamat bir-birini axtarmağa başlayıb. Telefonlara "sən canın, bunu bir fırlat" mesajı yağır.

İlk öncə "Temu" nədir və niyə bu qədər populyardır, bu haqda danışım.

"Temu" 2022-ci ildə yaradılmış, sürətlə böyüyən beynəlxalq e-ticarət platformasıdır. O, istehlakçıları birbaşa istehsalçılarla birləşdirərək sərfəli qiymətlərdə geniş məhsul çeşidi təklif edir. Qiymətlərin ucuz olması və məhsulların birbaşa istehsalçıdan göndərilməsi platformanı qısa müddətdə məşhur etdi. İnsanlar ona daha çox Çin bazarına birbaşa çıxış kimi baxır: ucuz paltar, ev əşyası, elektronika və sonsuz sayda xırdavatın satışı mövcuddur. İgidi öldür, haqqını yemə deyiblər. Doğrudan da nə tapa bilməsən, orada var, axtar, sifariş et, qapına gəlsin.

Amma platformanın bu qədər sürətlə yüksəlməsinin əsas səbəbi yalnız ucuzluq deyil. "Temu" platformasının ən çox diqqət çəkən cəhətlərindən biri onun geniş reklam strategiyası və "pulsuz hədiyyə" adı ilə yaydığı oyundur. Bu sistemdə istifadəçilərə paltar, aksesuar və arzuladıqları digər məhsullar tam pulsuz vəd edilir, lakin bu hədiyyəni əldə etmək üçün onlardan bir neçə dəfə oyun oynamaq, çarx (spin) fırlatmaq və ən əsası, dostlarını link vasitəsilə dəvət etmək tələb olunur. Məhz bu son mərhələ artıq sosial problemə çevrilib.

Son illərdə istifadəçilərin bir çoxu sosial şəbəkələrdə, mesajlaşma qruplarında və hətta real həyatda bir-birinə təkidli şəkildə "linki fırlatmaq", "qeydiyyatdan keçmək", "bir dəfə linkə daxil olmaq" üçün müraciətlər edir. Nəticədə insanlar bir-birini narahat edir, bəzi hallarda isə bu, münasibətlərin korlanmasına, görülən mesajların sayının artmasına gətirib çıxarır. Ekranı sürüşdürüb görürsən "Temu" linkidir, söndürüb boş verirsən.

"Temu"da "pulsuz hədiyyə" kampaniyası ilk baxışdan adi bir oyun kimi görünür. Amma sistem elə qurulub ki, proses getdikcə çətinləşir, hədiyyə sanki əlçatmaz olur və istifadəçi daha çox adam dəvət etməyə məcbur qalır. Nəticədə sosial şəbəkələr, qohum-qonşu qrupları, məktəb, sinif vatsap çatları, hətta iş yerləri belə "mənim üçün bir gir fırlat", "qazanmağım üçün bir nəfər qalıb" mesajları ilə dolur. Ən əsəb toxunduran yeri də odur ki, bir nəfər link göndərən kimi başqaları da "hamı edir, mən niyə etməyim, bəlkə qazanıram" deyib o linkə daxil olur, başlayır oynamağa. Sonda hamı əliboş qalır, həvəsləri qırılır. İnsanlar hədiyyə qazanmaq istəyən dostunu qırmamaq üçün linkə daxil olur, amma içdən deyinə-deyinə öz narazılıqlarını bildirirlər. Bir müddət sonra isə bu xahişlər əsəblərə toxunmağa başlayır.

Bir az araşdırdım, psixoloqlar bu cür mexanizmi "sosial təzyiq marketinqi" adlandırırlar. Platforma istifadəçiləri motivasiya etmək üçün "demək olar ki, qazanmısan", "bir nəfər də dəvət eləsən, hədiyyə sənin olacaq" kimi mesajlarla insanı şüuraltı manipulyasiya edir. İstifadəçilər isə real hədiyyə əldə etmək ümidi ilə dostlarını linklərlə boğur, nəticədə böyük bir kütlə kampaniyaya cəlb olunur. Lakin çox vaxt hədiyyə son mərhələdə ya alınmır, ya da proses uzadılır və istifadəçilər məyus olurlar.

"Temu" çox ağıllı şəkildə emosiyaları hədəfləyir – ümid, maraq, rəqabət, qazanmaq hissi... Bir çox oyunlarda olduğu kimi, beyin pulsuz hədiyyə gələcək düşüncəsi ilə hərəkət edir. Bu, insan psixologiyasının təbii mexanizmidir və böyük şirkətlər bunu yaxşı bilirlər.

Artıq sadəcə əsəbiləşmirik, ciddi mənada bezmişik. Biri var "Temu"nun nə olduğunu belə düzgün bilmədən gün ərzində kim gəldi "sən Allah, bir dəfə fırlat da" deyə link atır. Sanki hər kəsin boynuna borc qoyulub ki, kiminsə spinini xilas etsin. Hətta fırlatmayanda mesaj yazıb adamı təhqir edənlər də var: "Nolar ki, əlinmi qopacaq, paxılsanmı" kimi mesajlar yazırlar.

Gün ərzində kifayət qədər yorulursan, əsəblərin gərilib, başın qarışıqdır... Telefon səsi gəlir və içində bir ümid olur ki, bəlkə yaxın dostundu, bəlkə dərdini böləcəyin birinə ehtiyacın var. Mesajı açıb görürsən: "Bir dəfə fırlat, hədiyyəni qazanıram, az adam qalıb".

Bir sözlə, "Temu" cəmiyyəti bir-birinə "fırlatdıran" platformaya çevrilib.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-cü kurs tələbəsi*

# İNSANLARIN ROBOTLAŞMASI



Son illər texnologiya hər gün daha sürətlə inkişaf edir. Robotlar fabriklərdə işləyir, tibb sahəsində həkimlərə yardım edir, evlərdə gündəlik işləri yerinə yetirir. Bir sözlə, süni intellekt artıq yazır, danışır, analiz edir, hətta bəzi sahələrdə insandan daha sürətli nəticələr göstərir. Bütün bu yeniliklərin arxasında daha ciddi və görünməyən təhlükələrdən biri insanların robotlaşmasıdır.

Həyatımızın böyük hissəsini telefon ekranına baxmaqla keçiririk. Sosial şəbəkələr emosiyalarımızı idarə edir, alqoritmlər qərarlarımızı formalaşdırır, internet düşüncəmizi idarə edir. İnsan araşdırmaq əvəzinə hazır cavab gözləyir. Özü analiz etmədən verilən məlumatı qəbul edir. Bu isə beyinin passivləşməsi, yaradıcılığın zəifləməsi və insanın robotlaşmasıdır.

Artıq insanlar bir-biri ilə robot kimi davranırlar: ünsiyyət qısalıb, hisslər zəifləyib, emosiyalar standartlaşıb. Hər kəs eyni jestləri, eyni sözləri, eyni reaksiyaları təkrarlayır. Çoxları öz fikrini yox, gördüyünü və eşitdiyini kopiyalayır. Məsələn, adi "yaxşıdır", "oldu" sözlərinin əvəzinə insanlar "tm", "ok", "pk", "hmm" kimi qısa və emosiyasız "ifadələrdən" istifadə edirlər. Bu isə danışığın təbii axıcılığını pozur və ünsiyyətin insani tərəfini zəiflədir. Bir sözlə, hiss etmək və ifadə etmək bacarığımız sanki yavaş-yavaş yox olur. Bu, cəmiyyətin yavaş-yavaş proqramlaşdırılması kimi görünür. Çünki proqram da yalnız ən qısa, ən funksional reaksiyanı seçir. Biz də eyni modeli insan münasibətlərinə tətbiq etməyə başlamışıq.

Düzdür, texnologiya rahatlıq gətirir, amma eyni zamanda insanı düşünməkdən uzaqlaşdırır. Adi hesablamaları belə telefonla edirik, ünvanları yadda saxlamırıq, qrafik hazırlamağı, plan qurmağı, hətta yazmağı belə alqoritmlərə buraxmışıq. Bir çox sahədə robotlar işləyir, amma insanlarda da robotların "xarakteri" formalaşır; məsələm, sərtlik, avtomatik davranış, təkrarlanan hərəkətlər... Necə ki proqram yazarkən eyni funksiyanı bir neçə dəfə istifadə etmək lazım gələndə onu sıfırdan yaratmaq əvəzinə kopiyalayıb yapışdırırıq. İnsanların həyatı da sanki belə "kopiyalanmış funksiyalara" çevrilib. Hər kəs bir-birində gördüyünü təkrarlayır, davranışlar isə zamanla orijinallığını itirir.

Əslində robotlaşma fiziki deyil, zehni və emosional bir prosesdir. İnsan beyni məşq etmədikcə zəifləyir. Hisslərini yaşamaqdan qorxarsa, donur. Yaradıcılığını işlətməzsə, itirir. Bu isə insanı insan edən əsas xüsusiyyətlərin zəifləməsinə gətirib çıxarır. Necə ki təhsil insana təkcə bilik vermir, düşünməyi öyrədir. Oxuyan insan analiz edir, sual verir, fərqləndirir və öz fikrini yaradır. Yaradan insan isə heç vaxt robot olmaz, çünki robotun xəyal gücü yoxdur. Yəni hiss edən insan robotlaşmaz, çünki robotda sevinc, qorxu, həyəcan, mərhəmət və sevgi hissi yoxdur...

Əsas məsələ texnologiyaya sahib olmaq yox, texnologiyanın bizə sahib olmasına imkan verməməkdir. İnsan özünü robotlaşdırmadığı müddətdə robotlar sadəcə bir vasitə olaraq qalacaq. Gələcəyin cəmiyyəti texnologiya ilə yanaşı düşünən, hiss edən və yaradan insanlara ehtiyac duyacaq. Texnologiyanı alət olaraq istifadə edən, amma özünü robotlaşdırmayan cəmiyyət hər zaman üstün olacaq. Əgər biz öz dəyərlərimizi, emosiyalarımızı və düşüncə azadlığımızı qorusaq heç bir robot insanın yerini tuta bilməz. Çünki robotlar gələcəyin gücü olsa da insanlar gələcəyin ruhudur.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# TARİXİN DOSTLUQ SƏHİFƏLƏRİ



Leonti Mroveli "Gürcüstan tarixi" əsərinin əvvəlində gürcülərin və digər Qafqaz xalqlarının ilkin mənşəyi barəsində söz açır. Onun fikrincə, Qafqazın bütün xalqlarının Tarqamos adlı bir əcdadı olub. Və ardından da Tarqamosun ulu babasının Nuh peyğəmbər olduğunu qeyd edir. O, Nuh peyğəmbərin üçüncü oğlu Yapetin nəvəsinin oğlu olub. Belə ki, bu tarixçinin sözlərinə görə, "Tarqamos qəhrəman bir kişi idi". O, Tarqamosun Qafqaza gəlişini, Ağrı və Masis dağları arasında məskunlaşmasını nəql edir.

Tarqamosun səkkiz övladı olub. Onlar da ataları kimi qəhrəman olublar. Hər birinin çoxlu övladı və törəməsi olub. Tarqamos 600 il yaşayıb və bu müddət ərzində onun nəsli o qədər artıb ki, onların ölkəsinin Ağrı və Masis arasında yerləşməsi çətinləşib. Bu zaman Tarqamos öz ölkəsini onlar arasında bölüşdürərək hər birinə ayrıca yurd bağışlayıb. Tarqamos öz övladlarından birinə özünün yaşadığı Ağrı və Masis dağları arasındakı ərazini, o birinə şərqdən Hereti, Berduğ çayları ilə sərhədlənən, qərbdən Ponto dənizi sahillərinədək uzanan, cənubdan isə dağlıq olan geniş bir ölkəni, digərinə isə Kürün cənub hissəsi ilə birgə Berduğ çayından tutmuş Kürün Araz çayına qovuşduğu yerədək olan ölkəni vermişdir.

Bu minvalla Tarqamos öz övladlarının hamısına müəyyən ərazi bağışlamış və Qafqaz xalqlarının hazırkı ərazilərdə məskunlaşmaları, adı çəkilən tarixçiyə görə, belə baş vermişdir.

Unutmaq lazım deyil ki, L.Mrovelinin Qafqaz xalqlarının mənşəyi barəsindəki bu nəzəriyyəsi İncil rəvayətlərinə istinad edildiyindən həqiqət kimi qavranıla bilməz. Lakin bu nəzəriyyənin də özündə elm üçün nəzərə alınaraq bir çox ciddi məlumatlar, konkret olaraq, Azərbaycan və gürcü xalqlarının, digər yerli Qafqaz xalqlarının qan qohumluğu, qardaşlığı haqqında məlumatlar mövcuddur.

Məlumat üçün təqdim etdiyim bu nəzəriyyəni xülasələyərək Azərbaycan və gürcü xalqlarının dostluq salnaməsinin bir çox tarixi məqamları haqqında söz açmaq istəyirəm.

Mrovelinin yazdığına görə, Qafqaz xalqları düşmənə qarşı mübarizədə həmişə bir olmuşlar. Bəşəriyyətin ilk əfsanəvi hökmdarı Nəmruda qarşı Tarqamosun övladları birgə mübarizə aparmışlar. Bir dəfə Nəmrud özünün altmış nəfərlik seçmə igidi və saysız-hesabsız qoşunu ilə Adərbakana, yəni Azərbaycana hücum etmişdir. Tarqamosun övladları bu xəbəri eşidən kimi öz qoşunları ilə bir yerə cəm olaraq Ağrı dağı yaxınlığında Nəmruda qarşı ciddi savaşa başlamışlar. Dəhşətli döyüşlərdən sonra Tarqamosun övladlarının birləşmiş gücü ilə düşmən üzərində inamlı qələbə qazanılmışdır. Mrovelinin təbirincə desək, "onda Tarqamosun övladları onlara zor gəldi, Nəmrudun altmış nəfər igidini və saysız qoşununu məhv etdi, məğlub olan Nəmrud qaçdı".

Yəni L.Mrovelinin yazdığına görə, bir dəfə İran şahı Keyxosrov (Kir) tərəfindən məğlubiyyətə uğrayan iyirmi səkkiz ailədən ibarət türklər Qurqan (Xəzər) dənizini keçərək, Kür çayı boyunca gəlib Msxetaya çatmışlar. Burada Msxetanın mamasaxlisinin (kəndxudasının) yanına gəlib, ondan sığınacaq istəmişlər və sığınacaq verildiyi halda iranlılara qarşı mübarizədə gürcülərə yardım edəcəklərinə söz vermişlər. Qarşılıqlı anlaşmadan sonra türklərin əksəriyyəti Msxeta yaxınlığında məskunlaşaraq, mamasaxlisinin icazəsi ilə inşa işlərinə başlamışlar. Hündür hasar (qala barısı) çəkmiş, onu möhkəmləndirmişlər. Elə o vaxtdan da həmin yer Sarkine adlanır.

Son redaksiyası 9-cu əsrə aid olan və çarların həyatından soraqlar verən "Moksevay Kartlisay" ("Kartlinin dinə gəlməsi") salnaməsində göstərilir ki, Kartlinin ən ilkin əhalisi bun-türklərdir. "Çarların həyatı" da Kartlidə məskunlaşmış türkləri bun-türklər və qıpçaqlar kimi təqdim edir.

"Azərbaycan tarixi" kitabının 1-ci cildində oxuyuruq: "Yeremeyev yazırdı ki, III-V əsrlərdə türk tayfalarının Kiçik Asiyaya, Qafqaza və Balkan yarımadasına axını fəallaşmışdı. O, Hun türklərinin yerdəyişməsini nəzərdə tuturdu". Q.A.Melikişvili isə, mənbələrin məlumatına əsasən, qeyd etmişdi ki, qədim gürcü tarixi ənənəsi Kartlinin (Gürcüstanın) aran bölgələrində türk əhalisinin olmasını saxlamışdı.

Leonti Mrovelinin başqa bir yerdə yazdığına görə, Makedoniyalı İsgəndər saysız-hesabsız qoşunla Kartliyə hücum edir. O, Kartlinin qala-qəsrlərini altı ayda alır. Sarkinedə bun-türklər yaşadıqlarından oranı ələ keçirmək üçün on bir ay mübarizə aparmalı olur. Bun-türklər qətiyyətlə zor göstərirlər. İsgəndər hirslənərək Sarkineni mühasirəyə alır və onun sakinlərini məhv etmək qərarına gəlir. Çıxılmaz vəziyyətə düşən sarkinelilər gizlicə qalanın söykəndiyi qayanı oymağa başlayırlar. Qaya yumşaq olduğundan onu asanca deşərək aradan çıxır və boş şəhəri İsgəndərin öhdəsinə buraxırlar.

VII əsrin 40-cı illərində ərəblər tarixin arenasına çıxaraq yeni din bayrağı altında nəhəng dövlət yaratdıqdan sonra bir sıra ölkələri, o cümlədən Kartlini, yəni İberiyanı (Şərqi Gürcüstanı) da öz tabeliyinə keçirdilər. Gürcülərlə birgə albanlar da işğalçılara qarşı ciddi mübarizə aparırdılar. Onlar sözü bir yerə qoyaraq ərəblərə itaət etməkdən imtina etmiş və özlərinə kəsilmiş vergini ödəməkdən boyun qaçırmışdılar. Elə buna görə də xəlifə Qafqaz xalqlarının üsyanını yatırmaq və təqsirkarları cəzalandırmaq üçün böyük bir qoşunla öz sərkərdəsi Mərvan ibn Məhəmmədi buraya göndərmişdi.

Tiflis hakimi olan əmir xəlifə tərəfindən təyin olunurdu. Zaman keçdikcə o da adi feodala çevrilərək böyük feodallar üçün xarakterik olan bütün xüsusiyyətləri özündə əks etdirir, öz hökmdarına qarşı itaətdə olmamaq yolunu seçir. Beləliklə, o, xəlifənin sərəncamını yerinə yetirmir, Kartlidə toplanmış vergiləri ona göndərmirdi. Bu baxımdan, Tiflis əmirlərindən İshaq ibn İsmayıl xüsusilə fərqlənirdi. O, yerli gürcü çar-hökmdarları arasından sədaqətli müttəfiqlər tapmış, onların köməyilə xəlifənin bir neçə cəzaverici ekspedisiyasını məğlubiyyətə uğratmış və qovmuşdu.

Nəhayət, xəlifə o vaxtlar xilafətin paytaxtı olan Bağdaddan öz sərkərdəsi Buğa Türkü böyük qoşunla göndərərək, itaət etməyən İshaqa cəza verməyi tapşırdı. Buğa Türk öncə Ermənistana hücum edərək bütün sərkərdələri əsir götürdü. Görünür, ovaxtkı erməni hökmdarları əmir İshaqı dəstəkləyirdilər və bu səbəbdən də Buğa Türkün qəzəbini qazanmışdılar. Bundan sonra Buğa Türk Tiflisin başının üstünü aldırdı. Qala-qəsr bir müddət İshaqın başçılığı ilə fədakarcasına mübarizə aparsa da, nəhayət, məğlub oldu. Tiflisi ələ keçirən Buğa Türk itaətsizlik göstərənlərə divan tutdu. "Kartlis tsxovreba"nın ("Gürcüstan həyatı"nın) verdiyi bilgilərə görə, zəfər çalan Buğa Türk İshaqı qətlə yetirərək Tiflisi darmadağın etdi. Bundan sonra İshaqın keçmiş müttəfiqləri – abxaz çarı Teodos və Qardabanın xorepiskoposu (başçısı) mübarizə aparsalar da, onlar da məğlub oldular və Buğa Türk öz qoşunu ilə Qafqaz dağlarına doğru yürüş etdi. Dağlılar ona qarşı çox ciddi müqavimət göstərdilər. Böyük itkilərə məruz qalan Buğa Türk Azərbaycanın qədim şəhəri olan Bərdədə qışladı və buradan bir neçə uğurlu əməliyyat həyata keçirdi. O, təkrar Qardabana hücum edərək onu zəbt etdi, sonra Dərbəndin dəmir qapılarını açdı. Oradan üç yüz ailəlik xəzərləri Şəmkirə yerləşdirdi. Daryal qapısı ilə də yüz ailədən ibarət osetinləri Dmanisdə məskunlaşdırdı.

Afina sionunun yazılarına görə, Buğa Türk tərəfindən Tiflisin alınması 853-cü il avqustun 5-də, bazar günü baş vermişdi.

Ərəb xilafətinə qarşı yeddi il mübarizə aparan və dəfələrlə qələbə qazanan alban hakimi Cavanşirin gürcülərlə dostluğunu qeyd edən alban tarixçisi Moisey Kalankətli yazır: "Cavanşir İberiya qoşunlarını özü ilə götürüb dayanmadan Uti vilayətinə (Uti vilayəti o vaxtlar Qafqaz Albaniyasının Ermənistanla sərhəd olan əyalətlərindən biri olub) gəldi və qarşısına çıxan İran döyüşçülərinin hamısını qılıncdan keçirdi... Alban hökmdarı anası və qardaşları ilə öz ölkəsinə qayıtdı".

*(davamı növbəti sayda)*

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “ახალი ოლიო” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR 2025-Cİ İL № 21 (238)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QADIN VƏ KİŞİ TƏLƏBƏLƏRİN ƏN ÇOX MÜRACİƏT ETDİKLƏRİ TƏHSİL PROQRAMLARI MƏLUMDUR



Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına görə, 2024–2025-ci tədris ilinin əvvəlində ali təhsil müəssisələrində təhsil alan qadın tələbələrin ən çoxu – 38 %-i sosial elmlər, biznes və hüquq proqramlarında, ən azı isə – 3 %-i mühəndislik, emal və tikinti sahələri üzrə təhsil alırdı.

Statistika xidməti tərəfindən noyabr ayında dərc olunmuş ən son “Gürcüstanda qadın və kişi 2025” adlı hesabatda göstərilən məlumatlara görə, sosial elmlər, biznes və hüquq proqramlarında təhsil alan oğlan tələbələrin də ən çoxu – 33 %-i bu sahələrdə oxuyurdu, ən azı isə – 5 %-i humanitar elmlər və incəsənət proqramlarının tələbələri idi.

Daha dəqiq desək, 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrində tələbələrin proqramlar üzrə bölgüsü belə idi:

- Sosial elmlər, biznes və hüquq – qadın – 38 %, kişi – 33 %;
- Səhiyyə və sosial təminat – qadın – 27 %, kişi – 24 %;
- Humanitar elmlər və incəsənət – qadın – 13 %, kişi – 5 %;
- Elm – qadın – 11 %, kişi – 17 %;
- Mühəndislik, emal və tikinti sahələri – qadın – 3 %, kişi – 9 %;
- Digər sahələr – qadın – 8 %, kişi – 12 %.

Statistika xidməti həmçinin 2024-cü il məzunlarının proqramlar üzrə bölgüsünü dərc edib. Məlumatlar aşağıdakı kimidir:

- Sosial elmlər, biznes və hüquq – qadın – 50 %, kişi – 38 %;
- Səhiyyə və sosial təminat – qadın 19 %, kişi – 22 %;
- Elm – qadın 9 %, kişi – 12 %;
- Humanitar elmlər və incəsənət – qadın 9 %, kişi – 3 %;
- Mühəndislik, emal və tikinti sahələri – qadın – 2 %, kişi 11 %;
- Digər sahələr – qadın – 11 %, kişi – 14 %.

*Mənbə: edu.aris.ge*

## 2023-2024-CÜ TƏDRİS İLİNDƏ 8041 ŞAGİRDİN STATUSU DAYANDIRILIB, 3223 ŞAGİRDİN STATUSU LƏĞV EDİLİB



2023-2024-cü tədris ilində özəl və ictimai məktəblərin 8041 şagirdinin statusu dayandırılıb. 3223 şagirdin isə statusu ləğv edilib. Bu barədə 11 noyabrda Gürcüstanın Milli Statistika Xidmətinin yayımladığı “Gürcüstanda qadın və kişi 2025” adlı son hesabatda qeyd olunur.

Statistika Xidmətinin göstəricilərinə görə, statusu dayandırılmış 8041 şagirddən 3585-i qız, 4456-sı oğlandır. Statusu ləğv olunan 3223 şagirddən isə 2106-sı oğlan, 1117-si isə qız olub.

Hesabata əsasən, I–XII siniflər üzrə məlumatlar göstərir ki, statusun dayandırılması ən çox – 1196 halda X sinif şagirdləri arasında qeydə alınıb. Onlardan 436-sı qız, 760-ı isə oğlan olub.

Siniflər üzrə statusu ləğv olunanların statistikasında da analoji mənzərə müşahidə olunur – 2023–2024-cü ildə statusu ləğv edilən şagirdlər arasında ən çox X sinif şagirdləri üstünlük təşkil edir. Belə şagirdlərin sayı 2472 nəfər olub ki, onların 777-si qız, 1695-i isə oğlan olub.

*Mənbə: edu.aris.ge*

## GÜRCÜSTANDA MÜƏLLİMLƏRİN SAYI ARTIR



2020-2021-ci tədris ilindən məktəblərdə işləyən müəllimlərin sayı stabil olaraq artır. Bunu Milli Statistika Xidmətinin yaydığı göstəricilər də təsdiqləyir. Ancaq hansı fənn müəlliminin sayının hansı regionlarda artdığı məlum deyil.

Son göstəricilərə görə, 2024-2025-ci tədris ilində müəllimlərin ümumi sayı 66010 nəfər təşkil edib. Buradan 58174-ü ictimai məktəblərdə, 7836-sı isə özəl məktəblərdə işləyir. Qeyd edək ki, 58174 müəllimdən 57766-sı qadın, 948-i isə kişidir.

***Müəllimlərin sayı ilə bağlı son 5 tədris ilinin göstəriciləri bu cürdür:***

2020-2021-ci tədris ili – 62699 müəllim. İctimai məktəbdə – 55491, özəl məktəbdə – 7208;

2021-2022-ci tədris ili – 62981 müəllim. İctimai məktəbdə – 56010, özəl məktəbdə – 6971;

2022-2023-cü tədris ili – 62296 müəllim. İctimai məktəbdə – 56703, özəl məktəbdə – 5593;

2023-2024-cü tədris ili – 63665 müəllim. İctimai məktəbdə – 57586, özəl məktəbdə – 6079;

2024-2025-ci tədris ili – 66010 müəllim. İctimai məktəbdə – 58174, özəl məktəbdə – 7836.

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTANDA İŞSİZLİK SƏVİYYƏSİ AZALIB




Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2025-ci ilin üçüncü rübündə ölkədə işsizlik səviyyəsi 2024-cü ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz bəndi azalaraq 13,3 faiz təşkil edib. 2025-ci ilin üçüncü rübündə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə muzdla işləyənlərin sayı 0,9 min nəfər (0,1 %) artaraq 975,3 min nəfərə, özünüməşğulluq fəaliyyəti ilə məşğul olanların sayı isə 14,3 min nəfər (3,3 %) azalaraq 418,4 min nəfər olub. Hesabat dövründə işsizlərin sayı 12,1 min nəfər (5,4 %) azalaraq 213,7 min nəfər olub.

Məlumata görə, bu ilin üçüncü rübündə işçi qüvvəsində iştirak səviyyəsi (15 və daha yuxarı yaşda olan əhalidə işçi qüvvəsinin xüsusi çəkisi) əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz bəndi azalıb, məşğulluq səviyyəsi isə 5 faiz artıb. Kənd tipli yaşayış məntəqələrində işsizlik nisbəti ənənəvi olaraq qadınlar arasında 0,1 faiz bəndi, kişilər arasında isə 0,9 faiz bəndi azalaraq 114 faiz təşkil edib. Qadınlar arasında bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 44,0 faiz, kişilər arasında isə 66,9 faiz təşkil edib.

## GÜRCÜSTANDA 3,1 MİLYONDAN ÇOX AVTOMOBİL VAR

Gürcüstanın daxili işlər nazirinin müavini Aleksandr Daraxvelidzenin sözlərinə görə, ölkədə 3,1 milyondan çox avtomobil var və bu da yol qəzalarının başvermə ehtimalını artırır.

Nazir müavini bildirib ki, 2025-ci ilin 9 ayının məlumatlarına əsasən, ölkədə Gürcüstan vətəndaşlarına məxsus 1 milyon 972 min 692 avtomobil qeydiyyatdadır. Bu ilin 9 ayında xarici ölkə vətəndaşları Gürcüstana 1 milyon 151 min 943 avtomobil idxal edib.

Daxili İşlər Nazirliyi yol hərəkəti qaydalarının pozulmasına, o cümlədən sürət həddini aşmağa və düzgün manevr etməyə görə cəzaları artıran qanun layihəsini parlamentə təqdim edib.

***“Nazirlik hesab edir ki, cərimələrin artırılması Gürcüstanda yollarda ölüm hallarının azaldılması üçün qabaqlayıcı tədbirlər yaradacaq”,*** – deyə A.Daraxvelidze bildirib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.